

**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı Gəncə şəhəri**

*“...Unudulmamağı və gələcək nəsillər tərəfindən hörmətlə yad edilməyini istəyirsənsə, öz adını soyuq daşlarla deyil, insanların ürəyində həkk etməyi bacarmalısan”*

**Nəsrəddin Tusi. “Əxlaqi Nasir” əsərin əsərində**

## Oruc Göyçəli – 85

# Təki ürək yorulmasın



**Vətənimdə mənim izim qalmasa,**
**Yaşamağım nədi, ölməyim nədi?**
**Xalqımın dilində sözüm qalmasa,**
**Bu dünyaya mənim gəlməyim nədi?**

***Bu sətirlər Azərbaycanın el şairi, Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, “Qızıl qələm” mükafatı laureatı, onlarca fəxri fərman və tərifnamələrə, pul mükafatlarına layiq görülmüş, dünyanın əksər qütblərində yayılmış ondan artıq kitablarında vətənini, xalqını, torpağın hər qarışını ürəkdən sevən, onun keşiyində durmağı bacaran şair Oruc Göyçəliyə məxsusdur.***

***Onun səma qədər dərin, qırçınlı üfüqlər qədər geniş sənət xəzinəsinə bütün əbədi-bədii janrlarla nəfəs alan yanar qəlb və zəka məhsullarına zəmanəsinin büllur damlaları, ağ yağışları, gur selləri hopmuşdur.***

Bu şərəfli, həm də enişli-yoxuşlu, həmçinin müxtəlif əziyyət və çətinliklərə məruz qalmış istedadlı sənətkar yaradıcılığının taleyidir.

Oruc Göyçəli yaradıcılığını diqqətlə izləyib nəzərdən keçirdikdə belə bir həqiqətin də şahidi oluruq ki, maraq dairəsi geniş olan şair ətrafında baş verən hadisələrə biganə qalmır.

Neçə yüz illərdir, indinin özündə də xalqının başına müsibətlər gətirildiyi bir dövrdə erməni qəsbkarlarının torpaqlarımızı işğal etdiyi; min bir zəhmət və şövqlə yaradılmış abidələri, kənd və şəhərləri yandırıb külə göndərdiyi; bərəkətli bahar buludları əvəzinə göylərimizdə acı tüstülər dolaşdığı; yüz minlərlə insanın öz isti yuvasını tərk edib, çöllərə düşdüyü; on minlərlə oğlan və qızın toy xonçası şəhid məzarları üstünə daşındığı; minlərlə cocuğun yetim, neçə min qadının gəlinlik gərdəyi yığılmamış dul qaldığı; anaların, nişanlı qızların, istəkli bacıların ağlamaqdan gözlərini pərdə aldığı; ataların beli erkən büküldüyü bir zamanda Oruc Göyçəli güzəran rejimini pozsa da, xalqla bir yerdə olur, iradəsini toplayıb, müşahidələrini isti-isti qələmə almaqla, igid xalqına atalardan qalmış qəhrəmanlıq, dözüm, səbir, qeyrət təlqin edən şah beytlərdən əzəmətli imarət ucaldır. Beləliklə də şairin həyat manifesti ilə yaradıcılıq yolu, ədəbi-ictimai fəaliyyəti üst-üstə düşür, monoloq yaradır.

Erməni cəlladlarının fitnə-fəsadı, nəticəsində boşaldılmış, viranə qoyulmuş Qarabağ torpaqları, yurd həsrəti ilə qovrulan insanların vəziyyəti, keçirdikləri dərin, sonsuz iztirabları, filçəkməz dərdləri qeyrətli vətən oğulları sırasında Oruc Göyçəlinin də varlığını sarsıtmışdı. Hələ neçə il bundan əqdəm yazdığı “Qarabağım” şeirinin bir yerində deyir:

**Ayırmaq olarmı könülü candan?**
**Düşünmək də olmaz bunu bircə an.**
**Bir çöp əskilməsin Azərbaycandan,**
**Qanımla coşaram bil, Qarabağım,**
**Gün o gün olsun, gül, Qarabağım!**

**Qoynunda boy atıb Vaqif, Natəvan,**
**Vaxt gələr düşmənə vermərəm aman.**
**Bir də Qarabağı görməz heç zaman,**
**Qanımla coşaram bil, Qarabağım,**
**Gün o gün olsun, gül, Qarabağım!**

Bu misralar xalqı qəhrəmanlığa çağırışdır, öz gücünə inamdır, həm də təsirli bir məqamdır. Aqillər deyiblər ki, yaşanan ömrün yarıdan çoxu onun mətni, qalan hissəsi isə onun şərhidir. Bu şərti bölgünü şair ömrünə şamil etmək nisbətən çətindir. Çünki şair yaradıcılığa başladığı ilk anlardan ömrünün mətni ilə qoşalaşır, qovuşur, dağ çayıtək çağlayıb coşur, güclü şəlaləyə çevrilir. Bu məqamda Azərbaycanın tanınmış ziyalılarından olan tənqidçi-ədəbiyyatşünas Əkbər Ağayevin “İstedad və yazıçı mədəniyyəti” adlı məqaləsi yala düşür. Əkbər müəllim yazırdı: “İstedad öz-özlüyündə bir iş görə bilməz, istedad sənətkarlıq üçün lazımdır. Lakin hələ sənətkarlıq demək deyil. Poetik istedad o zaman səmərəli olur ki, o tərbiyə edilsin, yüksək yazıçı mədəniyyəti ilə birləşsin. İstedadın fitri cəhətləri vardır, yaradıcılıq prosesində mühüm rol oynayan yazıçı mədəniyyəti isə məhz həyatda qazanılır, yuxusuz gecələr, uzun və ağır əmək bahasına müxtəlif yollarla qazanılan həyat təcrübəsi hesabına əldə edilir. Yazıçının dünyagörüşü, elmi, nəzəri bilik səviyyəsi, müşahidə dairəsinin genişliyi və s. onun mədəni səviyyəsini təyin edir... Yazıçı mədəniyyəti olmadıqda, hər şeydən öncə, əsərin realizmi – yəni həyat həqiqəti zərər görür, əsərin əsas bünövrəsi sökülür, əsər öz ruhundan, canından məhrum olur və heç bir istedad belə əsərin köməyinə çata bilməz”. Bu sözlərdə həqiqətin günəş kimi şölə saçan bir əlaməti var. Doğrudan da əgər söylənilən hər iki faktor – yəni istedad və mədəniyyət vəhdətdə olmasa, bu zaman ədəbiyyat öz əhəmiyyətini itirər, gərəksiz olar. Altmış illik yaradıcılıq yolu keçmiş el şairi şeirə, sənətə həmişə məsuliyyət hissi ilə yanaşmış, vaxtaşırı axtarışda olmuşdur.

Bu ağsaqqal qələm sahibinin öz yolu, məqsədi və idealı aydın şəkildə hiss olunmaqdadır. Onun həyat yoluna qısa bir səyahət:

Oruc Məşədi Məmmədrza oğlu Vəliyev (Oruc Göyçəli) Qərbi Azərbaycan ərazisində nəzərə çarpan yüz göldən ən nəhəngi hesablanan Göyçə gölünün kənarında, səfalı təbiəti olan Çəmbərək rayonunun Ardanış kəndində 15 yanvar 1936-cı ildə dünyaya göz açıb. Uşaqlığı ikinci dünya müharibəsi illərinə təsadüf etdiyindən xeyli əziyyətə qatlaşıb. 1948-1953-cü illərdə indiki “Ermənistan”dan türklərin kütləvi deportasiyasının dalğası Vəliyevlər ailəsində də yan keçməyib. Ailə çətinliklə də olsa, Gədəbəy rayonunun Çobankənd kəndinə pənah gətirib. Gənc Oruc həmin kənddə orta təhsilini başa vurduqdan sonra Gəncəyə gəlib Tibb sahəsində təhsil alıb və uzun müddət səhiyyə sahəsində rentgenoloq ixtisası üzrə çalışıb. Neçə illərdir Gəncədə yaşayır.

Oruc Göyçəli sənət aləminə qədəm qoyduğu ilk günlərdə poeziyaya ötərgi hiss, əyləncə kimi deyil, özündən əvvəlki korifeylərin ənənələrini davam etdirmək niyyəti və qüdrətilə gəlmiş, onun isti ağuşunda özünə məskən salmış, sözün qədrini, qayəsini ləyaqətlə qorumuş, şair-vətəndaş amalını sərrast qətiləşdirmişdir.

***Şairin yaradıcılığına küll halında nəzər saldıqda onun bədii sənətinin nə qədər əhatəli, geniş və mürəkkəb olduğunu hiss edirsən. Onun poetik dünyası təkcə etik-didaktik baxımdan deyil, həm də fəlsəfi aspektdən ibarətdir. Müasir cəmiyyətin bütün gərdişi: ictimai-siyasi quruluş cərəyanı, onun dialektik inkişafı, dəyişən hadisələrin ahəngi sənətkarın təxəyyül süzgəcindən keçib, ictimai məna kəsb edərək düşündürən misralara çevrilmişdir. Bu əfsunlu poeziya öz oxucusunu həm mənən yüksəltmiş, həm də onu mətinlik, yenilməzlik mövqeyinə ucaltmış, istiqlal səngərinə səfərbər etmişdir.***

Oruc Göyçəli poeziyasında və dini biliklərin, obyektiv varlıq barədə düşüncələrin poetik həlli sənətkarcasına işlənir. İnsan amili, onun mənəvi dünyası, həyata baxışı və dialektik ziddiyyətləri, cəmiyyətdəki təkamül tərzi, etik-didaktik və lirik şəkildə düşündürən misralara dönmüşdür. Şairin yaradıcılığında təbii ki, həyat fəlsəfəsinin incə əlamətləri parlayır.

***Dahi Nizami sağlığında demişdir: “Böyüklər səf çəkib düzələndə, qabaqda peyğəmbərlər, arxada şairlər dururdu”. Doğrudan da belədir. Əgər şair həm də vətəndaşdırsa o, doğma xalqı ilə nəfəs alır, onun taleyini öz taleyi hesab edir. Oruc Göyçəli bu qəbildən olan sənətkarlardandır.***

Təbii ki, hər şey insanın daxilindən gəlir, qəlbin yanğısından xəbər verir. Elə həqiqi, hamıya məhrəm olan poeziya da budur. Əsl aşiq heç bir zaman sevdiyi nigarın ayaqlarına düşmür, o, öz məhəbbətini işi və əməli ilə sübuta yetirir. Vətəni, onun hər qarış torpağını, gülünü, çiçəyini, millətini sevmək elədir.

**Qurban ollam torpağına, daşına,**
**Buz bulaqlı, bağlı-bağatlı Göyçəm.**
**Qismət olsa, dolanaram başına,**
**Həmişə mehriban, elatlı Göyçəm.**

**Nankorlara qaldı torpağın, daşın,**
**Çən-duman alıbdı Şah dağın başın.**
**Mən nədən söyləyim, bilinmir yaşın,**
**Xəyalımda yaşar toy-büsatlı Göyçəm.**

*(“Göyçəm”)*

**Bacarsan, hər zaman səxalıq eylə,**
**Mərdlər arasında olsan, yaxşıdır.**
**Bu dünyada heç kim qalası deyil,**
**Sınmış könülləri alsan yaxşıdır.**

*(“Yaxşıdır”)*

Oruc Göyçəli səssiz-küysüz şairdir, desəm yəqin ki, yanılmaram. Zahirən olduqca mülayim, dinməz-söyləməz təsiri bağışlayan şairin daxilində bir qaynar aləm var. Bu keyfiyyət onun əsərlərində özünü büruzə verməkdədir. Mən şəxsən bir oxucu kimi Oruc Göyçəli poeziyasında çox şey görürəm. Oruc Göyçəli həm ağsaqqal, həm də el şairi kimi həyat hadisələrini poetik təfəkkürdən keçirir. Sonra dərin müşahidəsinin məhsulu olan nəcib misraları qüdrətli dilimizin əzmi ilə bədii vüsətə qaldırır.

Şairin yaradıcılığında vətənpərvərlik motivləri daha qabarıqdır, xalqına düşmənə nifrət, dosta məhəbbət hisslərini təlqin edir.

Müqəddəs ana məhəbbəti, insana hörmət, humanizm və vətənpərvərlik Oruc Göyçəli yaradıcılığının şah zirvəsidir. Yarım əsrdən artıq yaradıcılıq yolunda sənətkar bu əqidəyə, bu inama həmişə sadiq qalmış, yaradıcılıq üfüqlərinin ənginliklərində həşəmətli qartal kimi qanad çalaraq minlərlə oxucu qəlbinin əvəzsiz mehmanına, mehrabına dönmüşdür. Şair yazır:

**Vətənin torpağı, daşı da ləldi,**
**Ayağı da ləldi, başı da ləldi.**
**Dünya məkanında yaşı da ləldi,**
**Narahat ürəktək döyüşüb Bakı.**

**Gərib düşmənlərə sinəsini də,**
**Ucaldıb aləmə gur səsini də.**
**Dərib neft qoxulu nəfəsini də,**
**Həmişə vüqarlı görünüb Bakı.**

*(“Bakı”)*

Və yaxud:

**Səndən ayrı düşsəm, dözməz ürəyim,**
**Sənsən qəlbimdəki arzum, diləyim.**
**Ömürüm, ümidim, xoş gələcəyim,**
**Ay mənim Murovlu, Qoşqarlı Gəncəm.**

*(“Gəncəm”)*

**Yasamal dağıdır ömrünə sirdaş,**
**Ayağından keçir, Kür yavaş-yavaş.**
**Düzlərin məhsuldar, el-oban qardaş,**
**Hər gələn mehmandı sənə, Şəmkirim.**

*(“Şəmkirim”)*

Sənətkar həmişə biganəliyə qənim kəsilmişdir. Biganəlik insanda mənəvi boşluqdur. Axı, xarici gözəllik hələ şüurlu insan barədə heç nə demək deyil. İnsan mənən zəngin və gözəl olmalıdır. Bu keyfiyyətdən kasad olan şəxs vətənə də, özünə də zərbə vuracaq, belə ki, mənəvi zənginlik insani kamilliyin tacıdır. Buna görə də mənən kasad adamlar həmişə biganəlik toxumu səpməyə çalışırlar.

Axı qalaq-qalaq dərman qəbul etməkdənsə bir şirin söz, bir ürəkaçan şeir dinləmək daha əfzəldir. Oruc Göyçəli bütün yaradıcılığı boyu öz poeziya laboratoriyasını zənginləşdirmişdir. Bu gün oxucu mühakiməsinə verilən hər misra, hər bənd gecə-gündüz şairin dəmirçi kürəsini xatırladan odlu ürəyində əriyib qəlibə girmiş, cilalanaraq poetik nümunəyə çevrilmişdir.

***Şairin istər lirikası, istər ictimai məzmun kəsb edən əsərləri müxtəlif dövrlərin tarixi məhsulu olmuşdur. Anadan olduğu sevimli Ardanış kəndi, gənclik illərinin yadigarı olan Gədəbəy rayonu, bu rayonun dağı-dərəsi, təpəsi, düzü, meyvəsi, canlara dərman olan suyu, havası sənətkarın sevimli nəğməsinə çevrilir. Bütün bunlar bizə haqq verir ki, deyərək? Şair Oruc Göyçəli sağlığında klassikə çevrilmişdir. Bu hər şairə, hər yazıçıya qismət olmur. Əgər sənətkarın fikri, düşüncəsi, təfəkkürü doğma xalqının acılı-şirinli döyünən ürəyinə, vuran nəbzinə, düşünən beyninə çevrilirsə, bu zaman sənətkar əbədiləşir. Həm də onun yaradıcılığı təkcə doğma xalqına xidmətə deyil, ümumbəşəri mənəvi amilə çevrilir.***

***Bəli, xalqla qırılmaz tellərlə bağlılıq – 85 yaşlı böyük sənətkarın qüdrətinin sirləri məhz bu qaynaqlardadır. Səksən bez nədir ki? Yüz yaşında görüşənədək. Yaz-yarat vətən oğlu. Təki ürək yorulmasın. Oxucular yeni-yeni əsərlərinin yolunu gözləyir.***

*Şairin istər lirikası, istər ictimai məzmun kəsb edən əsərləri müxtəlif dövrlərin tarixi məhsulu olmuşdur. Anadan olduğu sevimli Ardanış kəndi, gənclik illərinin yadigarı olan Gədəbəy rayonu, bu rayonun dağı-dərəsi, təpəsi, düzü, meyvəsi, canlara dərman olan suyu, havası sənətkarın sevimli nəğməsinə çevrilir. Bütün bunlar bizə haqq verir ki, deyərək? Şair Oruc Göyçəli sağlığında klassikə çevrilmişdir. Bu hər şairə, hər yazıçıya qismət olmur. Əgər sənətkarın fikri, düşüncəsi, təfəkkürü doğma xalqının acılı-şirinli döyünən ürəyinə, vuran nəbzinə, düşünən beyninə çevrilirsə, bu zaman sənətkar əbədiləşir.*